UOT: 336.7

Qəzənfər Salman oğlu SÜLEYMANOV
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,
“Menecment”kafedrasının müdiri, i.e.d., professor
e-poçt: suleymanov.q.s@gmail.com

Arzu İslam qızı MİRHEYDƏROVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,
“Menecment” kafedrasının dosenti, t.e.n
e-poçt: arzu.mirgeydarova@mail.ru

Emiliya Xanhüseyn qızı ŞAHVERƏNOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti,
“Menecment” kafedrasının müəllimi
e-poçt:emiliyashahverenova@gmail.com
10.30546/4.71.73001.2024.04

SƏNAYE SAHƏLƏRİNİN İDARƏ EDİLMƏSİNDƏ MALİYYƏ RESURSLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ MEXANİZMLƏRİNİN İŞLƏNMƏSİ

Xülasə

Tədqiqatın məqsədi – sənaye sahələrinin rəqabətədavamlı iqtisadi inkişafında əsas meyarlardan biri olan onun maiyyə təminatının səmərəli təşkili və idarə edilməsi mexanizmlərinin işlənməsidir.

Tədqiqatın metodologiyası – tədqiqat işində müxtəlif yanaşmalardan, məntiqi olaraq ümumiləşdirmədən, müqayisəli analizlərdən və digər üsullardan istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – sənaye sahələrinin inkişafında maliyyə resurslarının əhəmiyyətliliyini nəzərə alaraq, mövcud maliyyə təminatından səmərəli istifadənin perspektivləri və onun yüksəldilməsi mexanizmini müəssisələrdə həyata keçirmək.

Tədqiqatın nəticəsi – sənaye sahələrinin idarə edilməsində maliyyə resurslarından səmərəli istifadənin təşkili xüsusiyyətlərinin və beynəlxalq təcrübə əsasında onun parametrik modelinin araşdırılmasıdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – ölkəmizdə sənaye sahələrinin maliyyə resurslarından səmərəli istifadənin yeni mənbələrinin formalaşdırılmasının iqtisadi mexanizmi işlənilib hazırlanmışdır.

Açar sözlər: sənaye sahələri, idarəetmə, maliyyə resursu, innovasiya, səmərəlilik.

Giriş

Sənaye sahələrinin səmərəli təşkili və idarə edilməsində ən vacib məsələlərdən biri onun rəqabətədavamlı innovativ iqtisadi inkişaf modelinin formalaşdırılmasıdır. Yəni, sənaye sahələrinin rəqabətədavamlı iqtisadi inkişafında əsas meyarlardan biri onun maliyyə təminatı və ondan səmərəli istifadə problemidir. Bütün bunlar isə ölkəmizin iqtisadi inkişafında aparıcı rola malik olan sənaye sahələrinin maliyyə təminatı probleminin aradan qaldırılmasını daha da aktual etmişdir. Belə ki, ölkə iqtisadiyyatının davamlı və dayanıqlı iqtisadi inkişafının təmin olunması sənaye sahələrinin maliyyə təminatından, yəni onun maliyyə resurslarının səmərəli təşkili və idarə edilməsindən bilavasitə asılıdır. Bu isə sənaye sahələrində yeni maliyyə təminatı mənbələrinin formalaşdırılmasını zəruri edir. Sənaye sahələrinin maliyyə resurslarının səmərəli təşkili iqtisadiyyatın və onun ayrı-ayrı sektorlarının davamlı inkişafında mühüm rol oynayır. Sənayenin inkişafı ənənəvi və alternativ maliyyə vasitələrindən istifadə etməklə yeni iş yerlərinin yaradılması, büdcə vəsaitlərinin bu məqsədlə istifadə edilməsinin qarşısının alınması, büdcə vəsaitlərinin artırılması və səmərəli istifadə edilməsinə şərait yaradır.

Bu məqsədlə “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı” Dövlət Proqramı, “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, “Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivləri üzrə Strateji Yol Xəritəsi” və digər proqramlar və konsepsiyalar da qəbul edilmişdir ki, burada strateji hədəflərdən biri də uzunmüddətli dövr üçün ölkədə sənaye sahələrinin perspektiv inkişafına nail olmaqdır.

Bu səbəbdən ölkəmizdə fəalyyət göstərən sənaye sahələrinin maliyyə resurslarının səmərəli təşkili və idarə edilməsinin mövcud mexanizmlərinin təkmilləşdirilməsi aktualdır.

Sənaye sahələrində maliyyə resurslarından səmərəli istifadənin təşkili xüsusiyyətləri

Demək olar ki, islahatların başlanğıcından bəri ayrı-ayrı alt sektorlar və sənaye sahələri, daha sonra isə hökumətin maliyyə-pul siyasətinin sərtləsdirilməsi sənayedə resursların, sənaye sahələri üçün maliyyə mənbələrinin çatışmazlığı problemi yaratmışdır. Bu, sənaye istehsalının gəlirliliyinin, likvidliyin azalmasında özünü göstərdi. 1995-ci ildən sonra Azərbaycan xüsusən də onların ən likvid formalarının çatışmazlığını kəskinləsdirdi. Bundan əlavə, inflyasiya proseslərinin zəifləməsi səbəbindən bu çatışmazlıq problemi daha aydın şəkildə özünü göstərdi.

Maliyyə cəmiyyətdəki iqtisadi münasibətlərin bir hissəsidir, amma təcrübədə mücərrəd münasibətlərlə deyil, real pulla məşğul oluruq. Maliyyə vasitəsilə dəyərin bölüşdürülməsi və yenidən bölüşdürülməsi, maliyyə münasibətlərinin maddi daşıyıcıları olan maliyyə resurslarını təşkil edən gəlir, daxilolmalar və yığım şəklində pul vəsaitlərinin hərəkəti ilə müşayiət olunur [5, s. 44].

“Maliyyə resursları”anlayışının xeyli sayda tərifi var. Bu anlayışları cədvəl 1-də acıqlayaq.

Cədvəl 1

“Maliyyə resursları” anlayışı

Tərifin müəllifi	Tərif
L.İ. Abalkin	Milli iqtisadiyyatın fasiləsiz işləməsi və inkişafı üçün istifadə olunan pul-kredit və büdcə sistemləri vasitələri olan iqtisadi resursların tərkib hissələri.
L.N. Pavlova	Ödənişlər və hesablaşmalar üzrə cari öhdəlikləri yerinə yetirdikdən sonra müəssisənin sərəncamında qalan təkrar istehsalın şəxsi vəsaitləri
İ.A. Blank	Müasir dövrdə iqtisadi fəaliyyəti təmin etmək üçün nəzərdə tutulmuş məqsədli pul vəsaitləri şəklində yığılmış şəxsi və borc vəsaitlərinin və onların ekvivalentlərinin məcmusu.

Mövcud çətin iqtisadi vəziyyətdə müəssisələr üçün bütün iqtisadi əlaqələrin idarəetmə sistemlərini təkmilləşdirmək lazımdır. Bu əlaqələrdən ən vaciblərindən biri müəssisənin maliyyə axınlarının formalaşması və paylanmasıdır. Maliyyə resurslarından səmərəli istifadə işin aparılması və inkişaf strategiyasının seçilməsində əsas meyardır [4, s. 344].

Maliyyə resurslarının formalaşması iki səviyyədə həyata keçirilir:

- ölkə miqyasında;
- hər bir müəssisədə.

Müəssisənin təsərrüfat fəaliyyətinin səmərəlilik səviyyəsi, əsasən, onun maliyyə resurslarının məqsədyönlü formalaşması ilə müəyyən edilir [11, s. 114].

Sənaye müəssisəsinin maliyyə resurslarının idarə edilməsi strateji, taktiki və əməliyyat məqsədlərinə çatmaq, davamlı fəaliyyətini təmin etmək üçün müəssisənin maliyyə potensialının optimal formalaşmasına, rasional yerləşdirilməsinə, səmərəli istifadəsinə, genişləndirilmiş təkrar istehsal və müəssisənin maliyyə potensialının artırılmasına yönəldilmiş idarəetmə qərarlarının qəbul edilməsi və həyata keçirilməsi proseslərini sintez edən mürəkkəb bir sistemdir. Dəyişən xarici mühit amillərinin təsiri nəzərə alınmaqla davamlı fəaliyyət və daha da inkişaf [19, s. 158].

Müasir şəraitdə hər hansı bir müəssisənin fəaliyyətinin səmərəliliyi bir-biri ilə əlaqəli göstəricilər və əmsallar sistemindən istifadə edərək hərtərəfli qiymətləndirmə yolu ilə müəyyən edilir. Müəssisənin maliyyə resurslarının formalaşması, paylanması, istifadəsi, bərpası və qaytarılması mərhələlərində idarəetmə sisteminin səmərəliliyini əks etdirir [18, s. 126]. Alimlərin iqtisadiyyatla

bağlı əsərlərində belə bir fikir üstünlük təşkil edir ki, müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin əsas göstəriciləri arasında kapitalın sürətini (vəsaitlərin fırlanmasını) və onun gəlir, ümumi, əməliyyat və ya xalis mənfəət şəklində qaytarılmasını əks etdirən maliyyə resurslarından istifadənin səmərəlilik göstəriciləri mühüm yer tutur.

Sənaye müəssisəsinin maliyyə resurslarının idarə edilməsi sisteminin strukturunda, fikrimizcə, “girişi” “çıxışa” çevirən və sistemdəki maliyyə resurslarının çevrilməsini təmin edən aşağıdakı ilkin qarşılıqlı əlaqəli prosesləri ayırmaq olar [20, s. 344]:

- müxtəlif mənbələrdə (öz, borc götürülmüş, cəlb edilmiş) maliyyə resurslarının formalaşması və səfərbər edilməsi ilə əlaqəli proseslər;
- maliyyə resurslarının müəssisənin aktivlərinə yerləşdirilməsi (investisiya) ilə əlaqəli proseslər (uzunmüddətli və cari);
- sənaye müəssisəsinin əməliyyat, investisiya, maliyyə fəaliyyəti prosesində maliyyə resurslarının (aktivlərə yatırılan) istifadəsi ilə bağlı proseslər;
- genişləndirilmiş əsasda maliyyə resurslarının bərpası (qaytarılması) ilə əlaqəli proseslər sənaye müəssisəsinin kapitallaşdırılmasını təmin edir (bazar dəyərinin artması);
- müəssisənin iqtisadi fəaliyyətinə maliyyə mənbələrinin yeni investisiyaları ilə əlaqəli proseslər.

Maliyyə resurslarının optimal idarə edilməsi üçün aşağıdakı tədbirlər tələb olunur [7, s. 75]:

1. Lazım olan zamanda banklara kredit müraciətləri və nağd ödənişlər təqdim etmək lazımdır.
2. Ərizə tərtib etmək və müqavilələr bağlamaq, ödəmə sənədlərini tərtib etmək və öhdəliklərin yerinə yetirilməsinə nəzarət etmək lazımdır.
3. Əsas fondların təmiri üçün maliyyələşdirmə planı tərtib etmək lazımdır.
4. Balans mənfəətinin bölüşdürülməsi və amortizasiya ayırmalarının yaradılması və s. üçün plan tərtib etmək lazımdır.

Ayrıca, əsas istehsal növləri, mənfəətin planlaşdırılması, debitor və kreditor borclarının ödənilməsi üzrə xərclər planının tərtib edilməsini unutmaq olmaz, defisit və ya profisit ayı görmək mümkün olan cədvəllərdən istifadə edərək pul vəsaitlərinin daxil və xaric olmasını əlaqələndirmək lazımdır [1, s. 14].

Maliyyə resurslarının quruluşu onların daxilolma mənbələri ilə müəyyən edilir. Müəssisənin maliyyə resurslarının yaranma mənbələri yenidən bölüşdürmə qaydasında daxil olan öz vəsaitləri, borc vəsaitləri, maliyyə mənbələridir.

Öz maliyyə resurslarının formalaşması daxili və xarici mənbələr hesabına baş verir. Öz maliyyə resurslarının formalaşmasının daxili mənbələri arasında müəssisənin sərəncamında qalan mənfəət böyük əhəmiyyət kəsb edir ki, bu da təsis orqanının qərarı ilə istehlak və yığım məqsədləri üçün bölüşdürülür [14, s. 94].

Əsas rolu əsas vəsaitlərin və qeyri-maddi aktivlərin aşınma dəyərinin pul ifadəsi olan amortizasiya ayırmaları da oynayır [3, s. 45].

Maliyyə resurslarının formalaşmasının xarici mənbələri arasında səhmlərin əlavə emissiyası və əvvəllər sabit öhdəliklər kimi təsnif edilmiş müəssisələrin bəzi fondları mühüm rol oynayır.

Borc vəsaitləri şirkətə gəlirləri, iş əməliyyatlarının həcmini artırmağa, kapitalın gəlirliliyini artırmağa imkan verir, çünki borc vəsaitlərinin öz maliyyə resurslarına nisbətən daha ucuz bir mənbə olduğu hesab edilir. Eyni zamanda, borc götürülmüş maliyyə resurslarının cəlb edilməsi müəssisə menecerlərinə maliyyə resurslarının həcmini əhəmiyyətli dərəcədə artırmağa imkan verə bilər, yəni müəssisələrdə yeni investisiya imkanları yarana bilər.

Müəssisələrin maliyyə resurslarının ölçüsü istehsalın həcmindən, səmərəliliyindən asılıdır və onlardan aşağıdakı məqsədlər üçün istifadə imkanlarını müəyyənləşdirir:

- lazımi kapital qoyuluşlarının həyata keçirilməsi;
- dövriyyə kapitalının artması;
- maliyyə öhdəliklərinin yerinə yetirilməsi;
- qiymətli kağızlara investisiya;

- sosial xarakterli ehtiyacların təmin edilməsi, xeyriyyəçilik və sponsorluq [15, s. 207].

Maliyyə resursları müəssisələr tərəfindən istehsal və investisiya fəaliyyəti prosesində istifadə olunur. Onların mövcudluğunun əsas formaları müəssisənin əsas və dövriyyə kapitalıdır. Maliyyə resursları müəssisənin balansının passivində əks olunur.

Ərazi iqtisadiyyatının sabitliyini qorumaq, böhran vəziyyətlərinin qarşısını almaq, iqtisadiyyatın müxtəlif sahələrinin fəaliyyətinin mütənasibliyini və tarazlığını təmin etmək üçün bölgədə maliyyə potensialının formalaşması və istifadəsinə nəzarət prosesi xüsusi əhəmiyyət kəsb edir. Nəzərə alsaq ki, indiki mərhələdə Azərbaycan Respublikasında xarici mənbələrdən maliyyə resurslarının cəlb edilməsi və istifadəsi çətindir, dövlətin iqtisadi inkişafının maliyyələşdirilməsi üçün öz mənbələrinin axtarışına ən kəskin ehtiyac özünü göstərir.

"Maliyyə potensialı kateqoriyasının öyrənilməsinin əsası, birincisi, dövlətin, bölgənin, bələdiyyənin iqtisadi potensialının xüsusi, müstəqil bir forması kimi məzmununun açıqlanmasıdır; ikincisi, maliyyə münasibətlərinin və maliyyə resurslarının yenilənməsində və inkişafında vəhdətini ifadə edən bir kateqoriya kimi nəzərdən keçirilməsi; üçüncüsü, maliyyə potensialının əlaqələrinin və maliyyə axınlarının maliyyə sistemi vasitəsi ilə ifadəsidir" [21, s. 4]

Milli maliyyə sisteminin mühüm tərkib hissəsi olan və regionun mürəkkəb sosial-iqtisadi ehtiyaclarını həll etmək üçün istifadə olunan müəyyən bir ərazinin potensialından istifadə baxımından regionun maliyyə potensialına xüsusi əhəmiyyət verilir.

Beləliklə, maliyyə potensialı E.A.İsayev tərəfindən "maliyyə imkanlarının tənzimlənməsi üçün ümumi bir mexanizmin formalaşması, ərazilərin inteqrasiya olunmuş iqtisadi və maliyyə prosesləri, büdcə ilə əlaqələri" kimi qəbul edilir [9, s. 46]. Müəllif maliyyə potensialının üç əsas xüsusiyyətini təklif edir:

- dövlətin və ya bölgənin iqtisadi potensialının xüsusi müstəqil forması kimi;
- maliyyə münasibətlərinin və maliyyə resurslarının yeniləşməsində və inkişafında vəhdəti kimi;
- "maliyyə sistemi və əlaqələri ilə əks olunan bir kateqoriya olaraq".

A.A.Kotukovun fikrincə, maliyyə potensialı "təsərrüfat subyektinin investisiya prosesini təmin etmək üçün ayıra biləcəyi pul kapitalı şəklində ifadə olunan yığılmış maliyyə resurslarının məcmusu" kimi başa düşülür [10, s. 34].

S.V.Zençenko öz tədqiqatında maliyyə potensialının iqtisadi mahiyyətini üç cəhətdən müəyyənləşdirir [19, s. 160]:

- sənayenin istehsal və iqtisadi fəaliyyətini təmin etmək, sosial vəzifələri yerinə yetirmək və sənayenin davamlı inkişafını təmin etmək üçün resurs bazası istehsal etmək qabiliyyəti kimi;
- sənayenin davamlı iqtisadi fəaliyyətini qorumaq üçün zəruri olan mövcud maliyyə və pul ehtiyatlarının məcmusu kimi;
- iqtisadi münasibətlərin nəticəsi kimi. Maliyyə potensialı cəmiyyətin investisiya prosesini, kapitalın bərpasını təmin etmək üçün ayıra biləcəyi pul kapitalını təşkil edən maliyyə resurslarının məcmusu kimi".

J. G. Holodovanın yanaşmasının müsbət tərəfi [12, s. 244] maliyyə resurslarının mənbəyi kimi ərazinin maliyyə infrastrukturuna diqqət yetirməkdir. Eyni zamanda, müəssisələrin maliyyə potensialının qiymətləndirilməsi üçün ümumi gəlir və ya müəssisə aktivlərinin miqdarını deyil, yalnız mənfəət və amortizasiya ayırmalarının seçilməsi olduqca mübahisəlidir. Bundan əlavə, əvvəlki metodologiyada olduğu kimi, xarici qurumlar tərəfindən yaradılan, xarici investisiyalar və ya maddi yardım şəklində sektora göndərilən maliyyə resursları haqqında məlumat yoxdur.

G.B.İvanova və R.A.Prokopenkonun [8, s. 183] fikri ilə razılaşmaq olar ki, maliyyə potensialını tam təmsil etmək üçün aşağıdakı bütün maliyyə axınlarını nəzərdən keçirməyə dəyər:

- malların və xidmətlərin istehsalı;
- istehsal xarakterli digər əmtəə və xidmətlərə tələbat yaradan əmtəə və xidmətlərin istehsalı üçün maddi xərclər;
- firmaların investisiyaları − müxtəlif mənbələrdən ev təsərrüfatlarının gəlirləri;


- vergilər;
- büdcə xərcləri.

“Sənayenin maliyyə potensialı” anlayışının mahiyyətinin öyrənilməsi sahəsində mövcud elmi düşüncənin aspektlərini nəzərdən keçirərək hesab edirik ki, bu iqtisadi kateqoriyada maliyyə resurslarının yalnız genişləndirilmiş təkrar istehsala sərf olunan hissəsi nəzərə alınmalıdır.

Bununla belə, bu metodoloji yanaşmalar maliyyə potensialını tam xarakterizə etməyə imkan vermir. Hesab edirik ki, daha optimal nəticələr əldə etmək məqsədilə resurs və təkrar istehsalı birləşdirəcək, eyni zamanda əvvəllər mövcud olanlardan fərqli olaraq sənayenin resurslardan səmərəli istifadə qabiliyyətini və onların təkrar istehsalı perspektivlərini xarakterizə edən “sənayenin maliyyə potensialı” anlayışının əsaslı şəkildə yeni bir tərifini formalaşdırmağa imkan verən əlavə, təsirli bir yanaşma tətbiq etməyə dəyər.

Beləliklə, təklif olunan effektiv yanaşma, mövcud olanlarla müqayisədə, “sənayenin maliyyə potensialı” anlayışını təkcə resurs komponentinin istifadəsi nöqteyi-nəzərindən deyil, həm də effektiv xarakteri göstərmək baxımından xarakterizə etməyə imkan verir. Bu tədqiqat kontekstində müasir iqtisadi şəraitin ehtiyaclarını nəzərə alaraq “sənayenin maliyyə potensialı” anlayışını müəyyənləşdirmək lazımdır. “Sənayenin maliyyə potensialı bölgənin iqtisadi təhlükəsizliyini və rəqabət qabiliyyətini təmin etmək üçün sinergetik effektə səbəb olan maliyyə resurslarının mövcudluğu və cəlb edilməsi imkanlarıdır” [6, s. 291].

Öz növbəsində, sənayenin maliyyə potensialının idarə edilməsi “sinergetik effekt əldə edən sənaye maliyyəsinin səmərəli paylanması, yenidən bölüşdürülməsi və istifadəsi” kimi başa düşülməlidir [6, s. 293] (şəkil 1).



Şəkil 1. Sinergetik effektin formalaşmasına yönəlmiş sənayenin maliyyə potensialının idarə edilməsi sxemi.

Sənaye sahələrində maliyyə resurslarından səmərəli istifadənin parametrik modeli

Sənayenin maliyyə potensialının idarə edilməsində iki amil vacibdir: birincisi, potensial gəlirin əldə olunan gəlirə çevrilməsi prosesi, ikincisi, onlardan subyektlərin xüsusi gəlir formalarının - maliyyə resurslarının formalaşması. Maliyyə potensialının səmərəli idarə olunması üçün iqtisadi inkişafın yüksək nəticələrinə nail olmağa imkan verəcək məqsədlərin dəqiq müəyyən edilməsi vacibdir. Bu məqsədlərə aşağıdakılar daxildir:

- sahəni mülkiyyət, borc və yenidən bölüşdürmə yolu ilə zəruri maliyyə resursları ilə təmin etmək;
- maliyyə axınının artırılması üçün maliyyə sistemi subyektlərinin stimullaşdırılması;
- resursların region üzrə iqtisadi sistemin subyektləri arasında, habelə, dövlət mərkəzinin xeyrinə yenidən bölüşdürülməsi;
- maliyyə resurslarının formalaşması, bölüşdürülməsi və istifadəsi prosesinə nəzarət;
- mümkün təhlükələrdən sığorta.

Bu gün ən vacib məsələlərdən biri iqtisadi sistemlərin maliyyə potensialının özünü təmin etməsi problemidir. Sahənin maliyyə potensialı istifadə edilib-edilməməsindən asılı olmayaraq, onun ixtiyarında olan resursların müxtəlifliyindən asılıdır. Bununla belə, sənayenin, eləcə də onun tərkib hissələrinin maliyyə potensialının qiymətləndirilməsi üçün vahid metodologiya mövcud deyil.

Sahənin maliyyə potensialını səmərəli qiymətləndirmək üçün mövcud elmi yanaşmalar əsasında sahənin maliyyə potensialının təsnifatının struktur xüsusiyyətlərini təhlil etmək lazımdır. Sahənin maliyyə potensialını təsnif etmək üçün istifadə olunan xüsusiyyətlərin istifadəsinin məqsədəuyğunluğunu nəzərə alaraq, maliyyə potensialının spesifik əsas xüsusiyyətlərini əks etdirən yeni, əvvəllər istifadə olunmamış təsnifat xarakteristikasını əlavə edərək, bu iqtisadi kateqoriyanı aşağıdakılardan asılı olaraq təsnif etməyi təklif edirik:

- ölçü vahidləri;
- formalaşma sferaları;
- maliyyələşdirmə mənbələri;
- istifadə dərəcəsi;
- potensialın reallaşma dərəcəsi.

Bölgənin maliyyə potensialının elementlərini xarakterizə edərkən onun strukturlaşdırılmasına bir neçə yanaşmanın olduğunu qeyd etmək lazımdır.

Beləliklə, Ə. Əhmədov bu elementləri müəyyən edir [1, s. 24]: büdcə potensialı, əhalinin yığım potensialı və təsərrüfat subyektlərinin (maliyyə institutları və qeyri-maliyyə müəssisə və təşkilatları) investisiya potensialı. Bu yanaşmanın əsas xüsusiyyəti kredit potensialının ayrıca element kimi regionun maliyyə potensialının strukturuna daxil edilməsidir. Y.Bulatovun alternativ nöqteyi-nəzərdən yanaşmasına görə regionun maliyyə potensialının strukturuna aşağıdakı elementlər daxil olmalıdır [2, s. 94]:

- regionun iqtisadiyyatının real sektorunun maliyyə potensialı;
- ev təsərrüfatının maliyyə potensialı;
- regionun büdcə potensialı;
- kiçik biznesin potensialı;
- regionun investisiya potensialı.

Ümumiyyətlə, bu yanaşma ilə razılaşmalıyıq, lakin hesab edirik ki, region iqtisadiyyatının real sektorunun potensialını və kiçik biznesin potensialını bir ümumi “təsərrüfat subyektlərinin maliyyə potensialı” kateqoriyasında qruplaşdırmaq olar, çünki seçilmiş elementlər bir-biri ilə sıx bağlıdır. Göstərdiyimiz arqumentlərə əsaslanaraq, regionun maliyyə potensialının strukturunda bu fundamental elementləri müəyyən etmək daha məqsədəuyğundur: büdcə potensialı, regionun təsərrüfat subyektlərinin maliyyə potensialı və kredit potensialı.

Maliyyə potensialının idarə edilməsi milli iqtisadiyyatın elementi kimi sosial-iqtisadi inkişafın davamlılığını təmin etmək üçün istifadə olunan potensialın maksimum səmərəliliyinə nail olmağa imkan verən qarşılıqlı əlaqəli və bir-birindən asılı prinsiplərə əsaslanmalıdır.

Bu prinsiplərə aşağıdakılar daxildir:

- maliyyə özünütəminatına nail olmağa yönəlmiş sistemli, kompleksli və məqsədli istiqamət;
- makro, mezo və mikro səviyyələrin inkişafının sinxronluğu;
- xarici mühitdəki dəyişikliklərə uyğunlaşma;
- bütün təsərrüfat subyektləri arasında maliyyə resurslarının və onlara olan tələbatın tarazlığına nail olmaq;
- strateji çeviklik;
- dövlət-özəl və sosial tərəfdaşlıq;
- müvəqqəti sərbəst maliyyə resurslarının toplanması;
- iqtisadi təhlükəsizlik.

Belə şəraitdə maliyyə potensialının idarə edilməsi prosesinin əsas ideyası maliyyə siyasətini rasionallaşdırmaqdır. Maliyyə siyasətinin səmərəliliyinin əsas meyarı sənayenin sosial-iqtisadi inkişafına maliyyə dəstəyinin sabitliyidir. Maliyyə siyasəti maliyyə potensialının idarə edilməsinin elementi kimi aşağıdakı prioritetləri təmin etməlidir:

- istehsalın iqtisadi stimullaşdırılması;
- maliyyə sabitliyinin təmin edilməsi;
- inflyasiya proseslərini saxlamaq;
- büdcə gəlirlərinin stimullaşdırılması;
- vergi sistemində islahatlar;
- maliyyə resurslarından səmərəli istifadə;
- effektiv maliyyə nəzarəti sisteminin yaradılması;
- büdcə sisteminin gücləndirilməsi;
- dövlət borcuna nəzarətin gücləndirilməsi;
- maliyyə qanunvericiliyinin təkmilləşdirilməsi.

Maliyyə siyasətinin təkmilləşdirilməsi üçün zəruri şərt:

− dövlət və özəl investisiyaların iqtisadi inkişafın prioritet sahələrində cəmləşməsi;

− büdcə investisiyalarından istifadənin həcminin və səmərəliliyinin artırılmasını tələb edən insan kapitalının inkişafı, səmərəli, nəticə yönümlü sosial infrastrukturun yaradılması;

− regionlarda mövcud iqtisadi inkişaf mərkəzlərinin inkişafının və yenilərinin formalaşmasının təmin edilməsi, inzibati rayonların və regionların depressiyasının aradan qaldırılması.

Maliyyə siyasətinin maliyyə dəstəyinin səmərəliliyinin sənaye sisteminin maliyyə dayanıqlığını xarakterizə edən göstəricilər toplusunun dinamikası əsasında qiymətləndirilməsi təklif olunur. Göstəricilər seçilərkən regionların maliyyə-iqtisadi vəziyyətinin qiymətləndirilməsi üçün statistika orqanları tərəfindən formalaşdırılan, eləcə də müxtəlif reytinq agentlikləri tərəfindən istifadə edilən üsullar təhlil edilmişdir.

Nəticədə aşağıdakılar seçilmişdir:

1. Adambaşına düşən orta ümumi regional məhsul – əhaliyə nisbətdə regional iqtisadi sistemin səmərəliliyini əks etdirir.

2. Rayonun müəssisələrinin ümumi sayında gəlirli müəssisələrin xüsusi çəkisi iqtisadiyyatın vəziyyətini, onun şaxələndirilməsini, struktur iqtisadi dəyişikliklərə müqavimətini xarakterizə edir.

3. Regional təsərrüfat subyektlərinin yekun maliyyə nəticəsi ərazinin iqtisadi vəziyyətini xarakterizə edir və real sektorun maliyyə axınlarının həcmini müəyyən edir.

4. Adambaşına düşən orta gəlir – əhalinin rifahını əks etdirir.

5. Əsas kapitala investisiyalar - regionda investisiya mühitini, investisiya fəallığının səviyyəsini xarakterizə edir.

6. Region iqtisadiyyatının ümumi gəlir strukturunda vergi daxilolmalarının həcmi rayonun gəlir potensialını və maliyyə müstəqillik dərəcəsini müəyyən edir.

Bu göstəricilər bütövlükdə rayonun maliyyə potensialının səviyyəsinə, eləcə də onu formalaşdıran əlaqələrə: vergi, büdcə, investisiya, kredit potensialı, təsərrüfat subyektlərinin və ev təsərrüfatlarının potensialına birbaşa təsir göstərir.

Bu iş çərçivəsində, səmərəli yanaşma nöqteyi-nəzərindən güman edilir ki, regionun maliyyə potensialının idarə edilməsinə əsas istiqamətlər cədvəl 2-də təqdim edilmişdir.


Cədvəl 2

Effektiv yanaşma nöqteyi-nəzərindən regionun maliyyə potensialının idarə edilməsinə dair yanaşmalar

1	Maliyyə resurslarının formalaşdırılması, bölüşdürülməsi və istifadəsi, müəyyən məqsədlərə nail olunması, ən səmərəli istifadə imkanları nəzərə alınmaqla həyata keçirilən tədbirlər kompleksi.
2	Ağlabatan, təşkilati olaraq nizamlanmış fəaliyyətləri təmin etməyə yönəlmiş idarəetmənin təsiri və inkişafın vəziyyətinin və nəticələrinin davamlı monitorinqi
3	Minimal xərclə maksimum təsir üçün konkret maliyyə vəziyyətinin operativ təhlilinə əsaslanan tədbirlər kompleksi
4	Region iqtisadiyyatının artımı ilə bağlı məqsədli proqramların həyata keçirilməsi üçün maliyyə resurslarının həcminin müəyyən edilməsi, habelə borc vəsaitlərinin cəlb edilməsi imkanlarının inkişafı
5	Effektiv və səmərəli idarəetmənin təmin edilməsinə yönəlmiş fəaliyyətlər

Maliyyə resurslarından istifadənin səmərəliliyinin təhlili və qiymətləndirilməsinə metodiki yanaşmalar

Müəssisənin maliyyə potensialının qiymətləndirilməsində iqtisadi və riyazi tədqiqat metodlarından geniş istifadə olunur. Metodlar sırasında maliyyə və riyazi statistik üsulları, müəssisənin maliyyə vəziyyətini və maliyyə imkanlarını qiymətləndirmək üçün göstəricilərin additiv və multiplikativ qiymətləndirilməsi metodu, matris metodu, ekspert qiymətləndirməsi metodu və s.sayılır. Müəssisənin maliyyə potensialını qiymətləndirmək üçün əməliyyat mərhələlərinin məntiqi ardıcıllığı təklif olunur. Eyni zamanda əməliyyat mərhələləri müşahidə, təhlil və qruplaşdırma üzrə ümumiləşdirilib bir qrupa toplana bilər (Şəkil 3).



Şəkil 3. Müəssisənin maliyyə potensialının qiymətləndirilməsi mərhələləri (müəllif işləməsi)

Mövcud maliyyə resurslarının həcmini, onların dinamikasını və səmərəliliyini təhlil etmək lazımdır. Müəssisənin pul vəsaitlərinin hərəkətinin səmərəli idarə edilməsi maliyyə tarazlığını təmin edir və müflisləşmə riskini azaldır, müəssisənin borc kapitalına ehtiyacını azaldır, kapital dövriyyəsini sürətləndirir (bununla da mənfəətin artımını təmin edir ki, bu da öz növbəsində regionun maliyyə potensialının tərkib hissəsi olan büdcə potensialının formalaşmasında iştirak edir).

Maliyyə potensialının səviyyəsini müəyyən etmək üçün müəssisənin likvidlik vəziyyətini, maliyyə sabitliyini və ödəmə qabiliyyətini qiymətləndirməyə imkan verəcək göstəriciləri seçmək məqsədəuyğundur və onların hədd qiymətləri müəyyən edilməlidir (Cədvəl 2.).

Cədvəl 2

Müəssisənin maliyyə potensialının reytinq qiymətləndirilməsi göstəriciləri

Göstəricilər	Maliyyə potensialının dərəcələri		
	Yüksək	Orta	Aşağı
Şəxsi kapitalın konsentrasiyası əmsalı	> 0,5	0,3-0,5	< 0,3
Faizlərin qarşılanma əmsalı	> 2,0	1,0-2,0	< 1,0
Sürətli likvidlik əmsalı	> 0,8	0,4-0,8	< 0,4
Mütləq likvidlik əmsalı	> 0,2	0,1-0,2	< 0,1
Bütün aktivlərin rentabelliyi	> 0,1	0,05-0,1	< 0,05
Şəxsi kapitalın rentabelliyi	> 0,15	0,1-0,15	< 0,1
Məhsul istehsal etmək üçün aktivlərdən istifadənin səmərəliliyi	> 1,6	1,0-1,6	< 1,0
Ümumi mənbələrdə borcun payı	> 0,5	0,7-0,5	< 0,7
Borc təminatı əmsalı	> 0,26	0,1 – 0,26	< 0,1
Borc qaytarma əmsalı	> 0,9	0,5 – 0,9	< 0,5

Müəssisələrin maliyyə potensialını qiymətləndirməyə imkan verən yuxarıda göstərilən metodikadan istifadə edərkən müəssisələrin borclarının təhlükəsizliyini qiymətləndirmək üçün borcun ödənilməsi əmsalından istifadə etmək tövsiyə olunur. Maliyyə sabitliyinin qiymətləndirilməsi əmsallarından fərqli olaraq, bu göstərici qiymətləndirmə zamanı borcun ödənilməsinin ən çox ehtimal olunan məbləğini izləməyə imkan verir.

Borcun qaytarılması əmsalının hesablanması üçün aşağıdakı düstur təklif olunur:

$$BÖH = (Cari\ dövr\ üçün\ borcun\ ödənilməsi)/(Borcun\ balans\ məbləği) \quad (1)$$

Alınan nəticələrdən asılı olaraq maliyyə potensialı əyrisi qurulur və onun konkret müəssisə üzrə səviyyəsi müəyyən edilir.

Ümumilikdə qeyd etmək yerinə düşər ki, iqtisadi subyektlərin strukturunda ən böyük maliyyə potensialına iri və orta müəssisələr malikdir. Bu onu deməyə əsas verir ki, məhsulların istehsalı və satışının həcmləri bazarın tələbatını ödəyir, müəssisələr maliyyə müstəqilliyinə malikdirlər və fəal şəkildə maliyyə potensialı yaradırlar.

Birinci qrupa şəxsi kapital və sonrakı dövrlərin xərcləri üçün ehtiyatlar, ikinci qrupa qısamüddətli və uzunmüddətli öhdəliklər, habelə gələcək mənfəət daxildir. Belə bir struktur, fikrimizcə, mövcud vəziyyəti daha ətraflı qiymətləndirməyə və müəyyən bir regiondakı müəssisələrin maliyyə potensialının inkişafı üçün mümkün perspektivləri müəyyən etməyə, habelə bu komponentin müəssisələrin maliyyə potensialına təsirini xarakterizə etməyə imkan verəcəkdir. Regional müəssisələrin maliyyə potensialı aşağıdakı düsturla hesablanmalıdır:

$$RMMP=ŞK+GDX+UÖ+CÖ+GDG+KBMP, \quad (2)$$

burada:

ŞK - şəxsi kapital;

GDX– gələcək dövrün xərcləri və ödənişlərin təmin edilməsi;

UÖ– uzunmüddətli öhdəliklər;

CÖ – cari öhdəliklər;

GDG – gələcək dövrün gəlirləri;

KBMP – kiçik biznes müəssisələrinin maliyyə potensialıdır.

Müəssisələrin maliyyə potensialını təhlil etmək üçün aşağıdakı tərkib hissələrə bölünmüşdür: şəxsi kapital, gələcək dövrün xərcləri və ödənişlər üçün ehtiyat, uzunmüddətli öhdəliklər, cari öhdəliklər və gələcək dövrün gəlirləri. Kiçik müəssisələrin maliyyə potensialının tərkib hissələrini ayırmaq mümkün olmadığı üçün bir cəm kimi təqdim olunur.

Regionda maliyyə təminatının səviyyəsini tənzimləmək üçün mühüm alət ərazinin iqtisadi subyektlərinin inkişafının monitorinqidir. Regionda müəssisələrin inkişafına nəzarət etmək və təsir etmək yollarını axtarmaq olduqca əhəmiyyətlidir. Bu tədbirlərin nəticələrini qiymətləndirmək üçün fərqlərin yaranması və ya bərabərləşdirilməsi prosesini xarakterizə edən diferensiallaşma göstəricilərinin dinamikasını təhlil etmək vacibdir. Bununla belə, qeyd etmək lazımdır ki, hazırda bu göstəricinin hesablanması üçün vahid metodika yoxdur. Diferensiallaşma səviyyəsini və dinamikasını kəmiyyətcə ölçmək üçün modifikasiya olunmuş variasiya əmsalından istifadə etdik:

$$V = \sqrt{\frac{1}{N}\sum_{i=1}^{N}\left(\frac{x_i}{\tilde{x}} - 1\right)^2} \times 100\% \text{ , (3)}$$

burada:

xi -i regionu üçün göstəricinin qiyməti;

$\tilde{x}$- regionun ərazi-inzibati vahidləri sistemi üzrə göstəricinin orta qiyməti;

N - regiondakı ərazi-inzibati vahidlərin sayıdır.

Müəssisənin maliyyə vəziyyətini yaxşılaşdırmaq üçün hər cür siyasət var. Məsələn, debitor borclarının, ehtiyatların və s. idarə edilməsi siyasəti.

Debitor borclarının idarə edilməsi siyasətindən istifadə edərkən, debitor borclarının ümumi həcmini optimallaşdırmaq və onun vaxtında yığılmasını təmin etməklə məhsul satışının həcmini artırmaq mümkündür, həm də ümidsiz borcları minimuma endirmək lazımdır.

Pul itirməmək üçün alıcılarla çevik ödəmə şərtləri və formaları ilə müqavilələr bağlanır. Məhsulların gələcəkdə göndərilməsi üçün əvvəlcədən qismən ödəniş də nəzərdə tutulur.

Təklif edilən endirimlər - bu, məhsul satışının həcmini artıran və vaxtında ödəmə qabiliyyətini artıran bir tədbirdir. Zəif fəaliyyət göstərən müəssisələrə isə cərimələr tətbiq edilir.

Maksimum endirimi müəyyən etmək üçün maliyyə davamlılığı ehtiyatı kimi göstəricidən istifadə edilir [1]:

$$MDE = (G - R_h) / S_m \text{ (4)}$$

burada:

G – gəlir;

R_h – rentabellik həddi;

S_m – satışdan mədaxildir.

Rentabellik həddi aşağıdakı kimi müəyyən edilir:

$$Rh = S_x / ÜM_ə, \text{ (5)}$$

burada:

S_x – sabit xərclər;

$ÜM_ə$ – ümumi marja əmsalıdır.

Ümumi marja əmsalı düsturla hesablanır:

$$ÜMə = (Sm - Sx) / V \text{ (6)}$$

burada:

S_m – satışdan mədaxil;

S_x – sabit xərclər

Maliyyə resurslarının idarə edilməsi siyasətinin məqsədi məhsulların tələb olunan miqdarda və vaxtında fasiləsiz istehsalını təmin etməkdir.

Maliyyə resurslarına vəsaitlərin riskli qoyuluşu ilə maliyyə dövriyyəsindən vəsaitlərin çıxarılması baş verdikdə, müəssisə müflisləşə bilər. O zaman “ABC” metodikası tətbiq edilə bilər.

Əhəmiyyətinə görə 3 kateqoriya ehtiyatı ehtiva edir. A kateqoriyalı ən vacib ehtiyatların optimal ölçülərini hesablamaq lazımdır. Bu, EOQ modelindən istifadə etməklə edilə bilər və optimal sifariş ölçüsü düsturu ilə müəyyən edilir:

$$q_{opt} = \sqrt{\frac{2AS}{rp}}, (7)$$

burada:

A - sifarişin yerləşdirilməsi və yerinə yetirilməsi xərcləri;

S – illik resurs tələbi;

r– resursların saxlanmasına görə faiz dərəcəsi (diskontlaşdırma qoyuluşu);

q – vahid tədarük resurslarının qiymətidir.

Sifarişlərin tezliyi illik resurs tələbinin optimal ölçüyə nisbəti ilə müəyyən edilir. Borc siyasətini həyata keçirən müəssisə rasional hərəkət edir, yəni şəxsi kapitalın (ŞKR) rentabelliyini təmin edir:

ŞKR = ((Pb – r*ZK) * (1 – NP)) / SK (8)

burada:

P- vergiyə qədərki mənfəət;

NP – mənfəətdən vergi norması və s.analoji ayırmalar;

r – borc maliyyə vəsaitləri üzrə orta faiz dərəcəsi.

Bu əmsal inflyasiya səviyyəsindən yüksək olmalıdır. Yüksələn mənfəət hesabına rentabelliyin artması müəssisənin maliyyə vəziyyətini yaxşılaşdırır. Leverec əmsalından (EPR) istifadə edərək, planlaşdırılan mənfəəti hesablamaq olar:

$EPR = (S_g – D_x) / S_m$ (9)

burada:

S_g – satış gəliri,

D_x – dəyişən xərclər,

S_m– satışdan mənfəət.

Satışdan planlaşdırılan mənfəəti müəyyən etmək üçün müəyyən bir alqoritm istifadə olunur:

1. EPR hesablanır.

2. Hesabat ili ilə müqayisədə planlaşdırılan gəlirin faiz dəyişməsi müəyyən edilir:

$V_r\%$ = Planlaşdırılan V_r/Hesabat V_r* 100% (10)

3. Hesabat dövrü ilə müqayisədə planlaşdırılan dövrdə satışdan əldə edilən mənfəətin faiz dəyişməsi müəyyən edilir:

$P_r\% = EPR*V_r\%$ (11)

4. Hesabat ilində mənfəətin mütləq kəmiyyəti müəyyən edilir:

P_r planlaşdırılır = P_r hesabat * K_r (12)

Əmsalları nəzərə alaraq qeyd etmək olar ki, maliyyə resurslarının idarə edilməsi siyasəti zəruri amillər nəzərə alınmaqla müəssisənin aktiv inkişafının tərkib hissəsidir.

Nəticə

Beləliklə, qeyd etmək lazımdır ki, regionun maliyyə potensialının əlavə təsnifat strukturu kateqoriyanı daha hərtərəfli öyrənməyə, yəni regionun maliyyə potensialını icra dərəcəsi ilə xarakterizə etməyə - potensialın reallaşdırılmasının əldə edilmiş nəticələrini qiymətləndirməyə imkan verəcəkdir və gələcəkdə perspektivli imkanları proqnozlaşdıracaqdır. Maliyyə potensialının fundamental elementlərinin müəyyən edilməsi maliyyə potensialının keyfiyyət və kəmiyyət baxımından qiymətləndirilməsinə imkan verəcək, həmçinin, ondan istifadənin səmərəliliyini xarakterizə edəcəkdir. Bölgənin maliyyə potensialının idarə edilməsi üçün məntiqi konstruksiyadan istifadə birbiri ilə əlaqəli və bir-birindən asılı prinsiplərin köməyi ilə regionun sosial-iqtisadi inkişafının davamlılığını təmin etmək üçün istifadə olunan potensialın milli iqtisadiyyatın elementi kimi maksimum səmərəliliyinə nail olmağa imkan verir. Bölgənin maliyyə potensialının effektiv yanaşma nöqteyi-nəzərindən idarə edilməsi üçün təklif olunan təlimatlar onun əsas elementlərinin yüksəlməsinə təsir göstərməyə imkan verən idarəetmə üsullarını təkmilləşdirməyə yönəldilmişdir.

Beləliklə, ümumilikdə qeyd etmək olar ki, maliyyə potensialının yüksəldilməsi perspektivlərini proqnozlaşdırmaq və təhlil etmək üçün onu daha ətraflı, xüsusən də müəssisə və təşkilatların maliyyəsinin əsas yaranma mənbələri, o cümlədən şəxsi vəsait və borc vəsaitləri üzrə strukturlaşdırmaq məqsədəuyğundur.

Fikrimizcə, biznesin həcmindən və istehsal həcmindən asılı olmayaraq, müəssisələrin maliyyə potensialının aşağıdakı istiqamətlərdə artırılması məqsədəuyğundur:

− əlavə gəlirin yığılması;

− real maliyyə resurslarının həcminin maksimuma çatdırılması;

− sabit ödəmə qabiliyyətinin və kifayət qədər maliyyə sabitliyinin təmin edilməsi;

− müəssisənin maliyyə risklərinin mümkün mənfi nəticələrinin neytrallaşdırılması;

− maliyyə resurslarının təsərrüfat fəaliyyətinin növləri və əsas sahələri üzrə bölüşdürülməsində mütənasibliyin təmin edilməsi;

− müəssisənin maliyyə resurslarından istifadə prosesində onların gəlirliliyinin yüksək səmərəliliyinin təmin edilməsi.

Beləliklə, maliyyə nəticələrinin idarə edilməsinin əsas məqsədi cari və gələcək dövrlərdə təşkilat sahiblərinin rifahının maksimum dərəcədə artırılmasını təmin etməkdir. Müasir şəraitdə hər hansı bir müəssisənin səmərəliliyi onun maliyyə resurslarının formalaşması, bölüşdürülməsi, istifadəsi, təkrar istehsalı və qaytarılması mərhələlərində idarəetmə sisteminin səmərəliliyini əks etdirən bir-biri ilə əlaqəli göstəricilər və əmsallar sistemindən istifadə etməklə kompleks qiymətləndirmə yolu ilə müəyyən edilir.

ƏDƏBİYYAT

1. Ахмедов, А.Б. Финансовый потенциал региона и его использование в системе межбюджетных отношений : автореф. дис. канд. экон. наук: 08.00.10 / А. Б. Ахмедов. – Махачкала, 2005. – 27 с.
2. Булатова, Ю.И. Финансовый потенциал региона: содержание и структуры / Ю.И. Булатова // Вестн. Санкт- Петербург. ун-та.– 2010.– № 3. – С. 94-97.
3. Боков А.В. Управление финансовыми ресурсами на предприятии // Материалы VIII Международной студенческой электронной научной конференции “Студенческий научный форум”
4. Брылина Е.Т. Платежеспособность организации: Учебник / Е.Т. Брылина. – М.: Книга, 2014. – 364 с.
5. Багрецова Н.А., Филиппова Г.П. Управление финансовыми ресурсами промышленного предприятия // Молодежный научный форум: Общественные и экономические науки: электр. сб. ст. по мат. XLIV междунар. студ. науч.-практ. конф. № 4-С.44-46.
6. Чайковская, О.В. Категория “финансовый потенциал региона” в системе характеристик цифровой экономики / О.В. Чайковская, К.И. Жильцова // Актуальные проблемы менеджмента: производительность, эффективность, качество: матер. Всерос. науч.-практ. конф. с междунар. участием. – СПб.: СПбГУ, 2017.- С. 291-294
7. Фейзуллаев М.А. Системное управление финансами предприятия / М. А. Фейзуллаев // Международный научно-исследовательский журнал. – 2016. –№ 3 (45) Часть 1. – С. 75-77.
8. Иванова, Г.В. Финансовая нестабильность региона: методы оценки и инструменты элиминирования / Г.В. Иванова, Г.Р. Сахапова// Экономические и социальные перемены: факты, тенденции, прогноз. – 2014. – №6. – С. 183-198.
9. Исаев, Э.А. Финансовый потенциал региона: консолидация, саморазвитие, регулирование / Э.А. Исаев // Финансовая экономика. – 2010. –№ 3. – С. 46-65.
10. Котуков, А.А. К вопросу исследования понятия “инвестиционный климат” [Электронный ресурс] // Проблемы современной экономики. – 2008. – № 4. – Режим доступа: “http://www.m-economy.ru/art.php?nArtId=2280”.
11. Гусейнов А.Н. Оценка воздействия финансовой политики в управлении финансовыми

ресурсами и на финансовые результаты на предприятиях / А.Н. Гусейнов // Образование. Наука. Научные кадры. – 2015. – №2. – С. 114-118.
12. Голодова, Ж.Г. Формирование и управление финансовым потенциалом региона в целях обеспечения его экономического роста: дис. д-ра экон. наук : 08.00.10 / Ж.Г. Голодова. – М., 2010. – 360 с.
13. Нестеров Е.А. Оценка финансовой устойчивости компании: Учебник / Е.А. Нестеров. – К.: Книга, 2014. – 414 с.
14. Пожалостина А.А. Учетно-аналитическая информационная система в управлении финансовыми результатами хозяйствующего субъекта / А.А. Пожалостина // Вестник Самарского государственного экономического университета. – 2013. –№1 (99). – С. 90-94.
15. Попов М.Н. Подходы к управлению финансовыми результатами организации / М.Н. Попов // Развитие современного общества в условиях реформ: Материалы II межвузовской науч.-практ. конф. (Тихорецк, 16 апр. 2014 г.) / Редкол.: Е.В. Королюк [и др.]. – Краснодар: Краснодарский центр научно-технической информации, 2014. – С. 207-211.
16. Швецова Н.К. Проблемы учетно-аналитического обеспечения управления финансовой устойчивостью бизнеса // Инновационное развитие экономики. –2013. № 3(15) – С.103-106.
17. Шаринова Г.А. Финансовый механизм в системе управления финансами/Г. А. Шаринова, М. П. Емельяненко//Молодой ученый. – 2013. – № 10. – С. 410-411.
18. Зиангирова А.Р. Управление ликвидностью организации с целью максимизации стоимости капитала // Зиангирова А.Р., Путятинская Ю.В./ NovaInfo.Ru, 2015. – Т. 1. – № 32. С. 126-129.
19. Зенченко, С.В. Формирование и оценка финансового потенциала региона: монография / С.В. Зенченко. – Ставрополь: Изд-во СевКавГТУ, 2007. – 210 с.
20. Цейнтин Е.А. Финансовая отчетность организации: Учебник / Е.А. Цейнтин. – М.: Наука, 2014. – 368 с.
21. Яруллин, Р.Р. Теоретические основы финансового потенциала региона / Р.Р. Яруллин, Г.А. Галимова // Современные проблемы науки и образования. – 2011. – № 6. – 7 с.

Газанфар Салман оглы Сулейманов
Азербайджанский Государственный Университет Нефти и Промышленности,
зав.кафедры “Менеджмент”д.э.н., профессор
e-poçt: suleymanov.q.s@gmail.com

Арзу Ислам кызы Миргейдарова
Азербайджанский Государственный Университет Нефти и Промышленности,
доцент кафедры “Менеджмент”, к.т.н.
e-poçt: arzu.mirgeydarova@mail.ru

Эмилия Хангусейн кызы Шахверанова
Азербайджанский Государственный Университет Нефти и Промышленности,
преподаватель доцент кафедры “Менеджмент”
e-poçt:emiliyashahverenova@gmail.com

Разработка механизмов эффективного использования финансовых ресурсов при управлении промышленными отраслями

Резюме

Цель исследования- разработка механизмов эффективной организации и управления ее финансовым обеспечением, которая является одним из главных критериев конкурентоспособного экономического развития отраслей.

Методология исследования- в исследовательской работе использовались различные подходы, логическое обобщение, сравнительный анализ и другие методы.

Практическая значимость исследования- учитывая значение финансовых ресурсов в развитии отраслей, перспективы эффективного использования существующей финансовой поддержки и механизм ее совершенствования на предприятиях.

Результат исследования- исследование особенностей организации эффективного использования финансовых ресурсов в управлении промышленными отраслями и ее параметрической модели на основе международного опыта.

Оригинальность и научная новизна исследования- разработан экономический механизм формализации новых источников эффективного использования финансовых ресурсов отраслей нашей страны.

Ключевые слова: отрасли промышленности, управление, финансовый ресурс, инновация, эффективность.

Gazanfar Salman Suleymanov
Azerbaijan State Oil and Industry University,
Department of "Management",
Doctor of Economic Sciences, professor

Arzu İslam Mirheydarova
Azerbaijan State Oil and Industry University,
Department of "Management", Candidate of technical Sciences, associate professor

Emilia Хангусейн Shakhveranova
Azerbaijan State Oil and Industry University,
teacher Department of "Management"

Development of mechanisms for effective use of financial resources in the management of industries

Summary

The purpose of the research – development of mechanisms for effective organization and management of its financial support, which is one of the main criteria for the competitive economic development of industries.

The practical importance of the research – taking into account the importance of human capital today, both economically and in other areas, human capital and the process of their management in organizations.

The results of the research – study of the features of organizing the effective use of financial resources in the management of industrial sectors and its parametric model based on international experience.

The originality and scientific novelty of the research – An economic mechanism has been developed to formalize new sources of efficient use of financial resources from industries in our country.

Key words: branches of industry, management, financial resource, innovation, efficiency.